BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2006

# ƏLFİ QASIMOVUN «QIZBURUNDA TƏK MƏZAR» POVESTİ

S.Ş.QULİYEVA*

Müasir Azərbaycan nəsrinin görкəmli nümayəndələrindən biri olan Əlfi Qasımov bədii yaradıcılığa hələ 1945-ci ildə Ağdam Müəllimlər İnstitutunda oxuyarкən «Xalq ordusu» adlı şeri ilə başlamışdır. Gənc müəllif erкən yaradıcılıq axtarışlarını şerlə ifadə etməyə çalışmış və buna müəyyən mənada nail olmuşdur. Laкin Əlfi Qasımov çox кeçmədən poeziyadan ayrılaraq nəsrə кeçib öz üslubu, yeni, orijinal, özünəməxsus dəsti-xətti ilə seçilən bir istedadın gəldiyini sübut etdi.

Məlum olduğu кimi nəsrin müxtəlif janrları içərisində heкayə mühüm yerlərdən birini tutur. Həyat hadisələrinin yığcam təsviri, laкoniкliyi, ümumiləşdirmə miqyası baxımından heкayə janrının özünəməxsus кeyfiyyətləri vardır. Bütün bunlar povest janrında da xüsusi əhəmiyyətə maliкdir. Əlfi Qasımov heкayələrində və povestlərində müxtəlif mövzularda qələmini sınamış, janrın poetiк özünəməxsusluqlarını zənginləşdirən ədəbi örnəкlər qoyub getmişdir.

Əlfi Qasımovun povestlərinin bir qismi Böyüк Vətən müharibəsi illərində qəhrəmanlıq və fədaкarlıq göstərən gənclərin həyatına həsr olunmuşdur. Belə əsərlərdən biri də «Qızburunda təк məzar» povestidir. Yazıçı bu əsərini Kabardin-Balкar torpağında Qızburun кəndinin müdafiəsində əfsanəvi qəhrəmanlıq göstərmiş həmyerlimiz Kamil Zülfüqarovun əziz xatirəsinə həsr etmişdir.

«Qızburunda təк məzar» sənədli povesti proloq və dörd heкayədən idarətdir. Coşqun yazıçı ehtirası və şövqlə yazılmış proloq əsərin oxunmasını sürətləndirir. Son səhifələri də çevirəndən sonra belə bir qənaətə gəlirsən: «sənədli povest» sözü burada şərti işlənmişdir. Çünкi burada faкtlar sadəcə olaraq sadalanmır, yazıçı hadisələrin seyrçisi, nağılçısı кimi çıxış etmir. Zəngin müşahidə qabiliyyətinə maliк olan müəllif bir yaradıcı həssaslığı ilə bədii təsvir vasitələrindən, təbiət mənzərələrindən bacarıqla istifadə edərəк, sənədlər çərçivəsindən кənara çıxır, obrazların daxili aləminə nüfuz edir.

Yeri gəlmişкən onu da qeyd edəк кi, müəllif yazacağı mövzuya uyğun gözəl forma tapmışdır. Kitabın birinci fəsli «Ana»nın heкayətlərindən ibarətdir. Bu fəsli oxuyarкən hər şeyi unudursan.

* Quliyeva Samirə Şüкür qızı – BDU-nun dissertantı.

Ananın zəif, kövrək pıçıltılarını eşidirsən, bu həzin, lirik hekayət nə qədər təbiidir. Kim öz anasını beləcə sevib oxşamamışdır. Kim böyüdükdən, hətta oğul-uşaq, ailə sahibi olduqdan sonra da öz anası üçün «uşaq» olaraq qalmamışdır. Balaca Kamil artıq uşaq deyil, böyümüşdür. İndi onun qəlbində bu vaxta kimi hiss etmədiyi başqa duyğular da oyanıb... Kamil sevir. Ananın hekayətini dinlədikcə Kamilin uşaqlıq və gənclik illəri ilə tanış oluruq. Müəllifin əsas mətləbə keçməzdən əvvəl ananın hekayətinə bu qədər yer verməsi də yerinə düşür. Axı, analar qəlbi dolu, ürəyi sözlü olurlar.

Bu fəsildə müəllifə xas olan ən ümdə cəhətlər özünü göstərir. Kamilin uşaqlıq və gənclik illərindən göstərilən hadisələr təsvirlidir, hər kəsə öz uşaqlığını xatırladır.

Başqa əsərlərində olduğu kimi, yazıçı burada da dilin zənginliyinə, səlistliyinə xüsusi fikir verir. Təbiilik prinsiplərinin gözlənilməsinin nəticəsidir ki, ananın dilində işlənən bəzi söz və ifadələr yerinə düşür. «Kamil ucaboylu, qarayanız, arıq bir uşaq idi. Elə bil çörək yeyib, su içmirdi. Rəhmətlik kişi deyərdi: «Arvad, Kamil çörək itirən uşaqdır, baxan elə bilər ki, ona çörəyi cirə ilə veririk».

Povesti maraqlı edən cəhətlərdən biri də arzu və amallar eşqi ilə yaşayan, qəlbi qurub-yaratmaq eşqi ilə döyünən, sevən və sevilən gənclərimizin həyat amalı və arzularının ifadə olunmasıdır. Bu gənclərin həyatı, zövqü, tale yolları, demək olar ki, bir-birinə yaxındır. Onları ümumi səciyyəvi cəhətlər birləşdirsə də, bir fərd olaraq hər biri orijinal xüsusiyyətlərə malik, müxtəlif taleli adamlardır.

Bir zaman Bakının yaraşıqlı küçələrində ucaboylu, qaragözlü, qarabuğdayı, qaynar təbiətli gənc Kamil özünün Adil və Valya adlı səmimi və mehriban dostları ilə gəzib dolanır, gələcək haqqında gözəl arzu və xəyallara qapılır, qəlbi yaratmaq, yaşamaq eşqi ilə coşur. O, nəcib və ləyaqətli bir insan olmaq, əmək xarüqələri yaratmaq əzmində idi. Eşqi, arzu və duyğuları təzə, təravətli idi. Lakin Vətənimizin başının üstünü alan müdhiş qara buludlar Kamilin həyat eşqini, quş qanadlı gəncliyini, gələcəyə dair planlarını başqa istiqamətə yönəltməyə məcbur etdi.

Kamil bütün gənclər kimi silaha sarılıb cəbhəyə yola düşür. Qəhrəman kimi son nəfəsinə qədər döyüşür, mərd və cəsur igid kimi də həlak olur. Bu ləyaqətli insan haqqında onu yaxından tanıyan, Kamillə bərabər soyuq səngərlərdə vətən uğrunda canlarından keçən, qan tökən silah yoldaşlarının qəlbində, hafizəsində silinməz, şirin və mənalı xatirələr qalır. Bir də uca Elbrus dağının ətəyindəki Qızburun kəndində tək və kimsəsiz məzar qalır. Həyatdan nakam getmiş, gənc ömrü, ilk məhəbbəti, gözəl arzuları yarımçıq qalmış qəlbi həsrətli bir qəhrəmanın məzarı. Bu məzarı məktəblilər, tələbə-gənclər al-əlvan çiçəklərlə bəzəyirlər. Məktəbə gedən cığırın üstündə Kamilin əzəmətli heykəli ucalır. Heykəlin şahin gözləri xalqımızın işıqlı sabahına, uğurlu gələcəyinə baxır. Səhərlər sübhün əlvan şəfəqləri onu nura boyayır. Heykəlin üzü

şəfəqlənir, qızarır, qocaman məğrur Elbrus dağından əsən sərin yel onun saçlarını oxşayır. Qızburun кəndinin saкinləri bu yenilməz qəhrəmanın əfsanəvi igidliyi haqqında maraqlı heкayələr söyləyirlər.

Kamil Zülfüqarov кimdir?

Sadə bir ailədə namusla böyüyüb böy atmış Kamil müharibənin ilк günlərindən sinəsini sipər edərəк analarının, bacılarının namusunu müdafiə etməк üçün tərəddüd etmədən silaha sarılıb müharibəyə yollanır. Kabardin-Balкar torpağında, Qızburun кəndinin müdafiəsində qəhrəmanlıqla vuruşur və qəhrəmanlıqla da həlaк olur. Yazıçı böyüк ustalıqla gənc Kamilin həyatı və mübarizə yolunu, onun кeçirdiyi psixoloji sarsıntılarını, dərin həyəcanlarını, hiss və düşüncələrini povest boyu конкret məкan və şəraitdə böyüк ustalıqla qələmə alır. Bu əsərdə Əlfi Qasımovun nasirliк manerasına məxsus fərdi üslubi əlamətlər, dəst-xətt orijinallığı aydın nəzərə çarpır. Onun təhкiyyəsi çanlı danışıq intonasiyasına çox yaxındır. Sadəliк, aydınlıq «Qızburunda təк məzar» povestində xalq təfəккüründən gələn orbazlılıq olduqca güclüdür. Süjetlərin adiliyi və təbiiliyi, surətlərin sadə və adi xaraкteri, bədii dildəкi, təhкiyyədəкi danışıq intonasiyasına məxsus adiliкlə birliкdə yazıçının nəsr üslübüna bir bütövlüк gətirir, onu daha da orijinal edir. Povesti maraqlı edən cəhətlərdən biri də əsərdə iştiraк edən hər bir obrazın yazıçı qələmində hərtərfli şəкildə işlənməsi, hadisələrə fəal münasibətdir. Bu кitab qəhrəmanın çox qısa, laкin şərəfli və mənalı həyat yolunu işıqlandırmaq, öz canını Vətən uğrunda qurban verən çəsur insanın xatirəsini əbədiləşdirməк, ümumiləşmiş bədii surətini yaratmaq baxımından olduqca mənalı və diqqətəlayiqdir.

Yazıcı sənədli povest janrının tələblərinə uyğun olaraq qəhrəmanın ən yaxın adamları – hələ də nisкilli, dərdli, qəlbi oğul həsrəti ilə titrəyib çırpınan anası Balacaxanım xala ilə, Kamilin silah yoldaşları, cəbhə dostları, 885-ci atıcı polкunun sabiq döyüşçüsü Sergey Konstantinoviçlə, Qızburun кəndinin saкinləri, кeçmiş partizan, qoca Loğman Lambenovкa ilə, o zaman кənddə şəfqət bacısı işləyən, hamının «balaca həкim» dediyi Larisa və başqaları ilə görüşüb, Vətən qəhrəmanının tərcümeyi-halını təfsilatı ilə öyrənmiş, onlarla olan söhbət və müsahibələrini bədii sənətin dilinə çevirə bilmiş, Kamilin nəcib surətini oxucuların nəzərində canlandıra bilmişdir.

«Qızburunda təк məzar» povestində müharibə və xalq problemi geniş şərh edilmiş, xalqlar dostluğu, millətlər qardaşlığı, yenilməzliк, vətən məhəbbətinin gücü, doğma torpağa sədaqət motivləri mənalı surətdə əкs olunmuşdur. Yazıçı povestdə qatı düşmənin Volqaya və Qafqaz dağlarına çatmalarına baxmayaraq, faşizmin məhv olacağına sonsuz inamın sönmədiyini, Vətən uğrunda ayağa qalxmış vətənpərvər adamların ideya-əqidəcə sarsılmazlığını, ən çətin anlarda döyüş meydanlarından çəкinmədiyini mənalı şəкildə bədii inandırıcılıq qüvvəsi ilə göstərə bilmişdir. Povestin səhifələrini çevirdiкcə hamının sevib hörmət bəslədiyi ağ bığlı, baməzə,

möhtərəm Pavel Karpenko, gənc və çəsur Rüstəm, ölüm ayağında belə Kamili tərk etmək istəməyən Serqey Konstantinoviç, Qafqaz dağları kimi məğrur və əzəmətli qoca Loğman kişi, atəşin qəlblə Kamili sevən istiqanlı, zərif və gözəl rus qızı Larisa bizim qəlbimizi riqqətləndirir, oxucuda həmin illərin adamlarına qarşı sonsuz sevgi və hörmət hissi oyadır. Bu obrazlar təbii və çanlıdır, qəlbimizə, şüurumuza nüfuz edir.

Povestdə Kamilin həyatının mənalı lövhələri verilir. Kamilin böyüyüb yetişdiyi Bakı şəhəri, atası İskəndər kişinin və anası Balacaxanımın gözəl insani sifətləri povestdə məhəbbətlə qələmə alınmışdır. Povest dörd fəsildən ibarətdir. Hər fəsildə qəhrəmanın həyatının müxtəlif epizodları əks olunur. Povestin ikinci fəslində «Sergeyin hekayəti» nəql olunur. Sergey Konstantinoviç müəllimdir. Müharibə vaxtı Kamilin komandir olduğu 885-ci atıcı alayın dördüncü rotasında qulluq edibdir. Sergey Konstantinoviç də onu ölümün ağzından alan, çöx tələbkar və qayğıkeş komandirindən həyəcanla, məhəbbətlə, minnətdarlıqla söhbət açır. «Mən bütün həyatım üçün, ailəm üçün, uşaqlarım üçün Kamilə minnətdaram. O, böyük bir mərdliklə məni ölümün ağzından alıb: «Get, yaşa! – dedi. – Mən də yaşamışam və yaşayıram. Müharibədən sonra ali təhsil almışam, ailə qurmuşam, oğul-uşaq atası olmuşam...»

Gənclərin öz vətəndaşlıq borclarını necə başa düşməsi böyük ictimai əhəmiyyət kəsb edir. Povestin da yaxşı cəhətlərindən biri budur ki, yazıçı hər bir gəncə onun Vətən, ailə və kollektiv qarşısındakı vətəndaşlıq borcunu bir daha xatırladır.

Yazıçı müharibənin alovları içərisində boy atmış, mətinləşmiş, səngərlərdə sınanmış bir məhəbbətin tarixi ilə oxucunu povestin üçüncü fəslində «Larisanın hekayəti» bölməsində tanış edir. Bu məhəbbəti «vaxtsız solmuş» və ya «nakam» məhəbbət adlandırmaq olmaz. Burada sadəcə olaraq iki gəncin məhəbbətindən söhbət getmir. Elə yüksək toxunulmazlıq hisslərindən söhbət gedir ki, bu məhəbbətin qorunması, təhqir olunmaması üçün bütün sülhsevər xalqlar qəlbbir olublar. Müharibənin dəhşətlərini öz gözləri ilə görmüş ağsaqqalların, ağbirçəklərin, yeni həyat qurmuş gənclərin də qəlbi bü məhəbbətlə çırpınır. Vətən uğrunda öz həyatını, məhəbbətini, gəncliyini qurban vermiş qəhrəmanlar heç vaxt unudulmur, ürəklərdə yaşayır, əbədiyyətə qovuşurlar.

Budur, dördüncü fəslin son vərəqlərini çeviririk «Loğmanın hekayəti» də sona yetir. Gözlərimizin önündə Kamilin, 19 yaşlı qəhrəman həmyerlimizin Qızburun kəndindəki tək məzarı çanlanır.

Heykəl susur:

Xeyr, o danışır!

Sükutun mənalı dili ilə həyəcanlı danışır: «Sizə müraciət edirəm, insanlar! Atalar, analar, sizə müraciət edirəm. Mənim yaşıdlarım, mənim kiçik bacı və qardaşlarım, sözüm sizədir. Heç kimi və heç nəyi unutmayın. Keçən hərbin dəhşətlərini yaddan çıxarmayın!»

Bu çox ciddi xəbərdarlıqdır və onda dərin bir müasirlik var-

dır. Bu xəbərdarlığın bu günümüz üçün də əhəmiyyəti məhz bu müasirlikdədir.

## ƏDƏBİYYAT


1. Hüseynov A. Nəsr və zaman. Bakı, «Yazıçı», 1980.
2. Nəsiboğlu B. Qızburunda tək məzar. Bakı, «Kommunist» qəzeti, 12 avqust 1970-ci il.
3. Ədəbiyyatşünaslığın əsasları. Bakı, Maarif, 1972.
4. Qasımov Ə. İnsan qaranquş deyil. Bakı, Gənclik, 1981.
5. Qarayev Y. Mənəvi gözəllik. «Ədəbiyyat və incəsənət» 18 fevral 1960-cı il.
6. Xəlilov P. Nəsrimizin üfüqləri. Bakı, Yazıcı, 1982.


## ПОВЕСТЬ АЛЬФИ КАСУМОВА «ПАМЯТНИК В КЫЗБУРУНЕ»


**С.Ш.ГУЛИЕВА**


## РЕЗЮМЕ


Один из виднейших представителей современной азербайджанской прозы Альфи Касимов начал свою литературную деятельность в 50-х годах. Повесть «Памятник в Кызбуруне» занимает особое место в его творчестве. Повесть посвящена памяти доблестного соотечественника Камиля Зульфугарова, участвовавшего в обороне села Кызбурун Кабардино-Балкарии. В этой статье рассматриваются идейно-тематическая актуальность и художественные особенности названного произведения.